# Milli Qurtuluş - xalqımızın bəxtinə yazılan ən xoşbəxt gün

**Azərbaycanın dövlətçilik tarixində əhəmiyyəti, mahiyyəti ilə seçilən, müstəqilliyimizin əbədilik tarixi adlandırılan 15 İyun- Milli Qurtuluş Günü respublikamızda böyük təntənə ilə qeyd olunur. YAP Yasamal rayon təşkilatında bu münasibətlə keçirilən tədbirdə öncə Azərbaycan xalqının xilaskarı, ulu öndər Heydər Əliyevin foyedə qoyulmuş büstü önünə əklil qoyuldu, Dövlət Himni səsləndirildi.**



**YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov** bildirdi ki, ötən əsrdə ikinci dəfə suverenliyinə qovuşan Azərbaycanın müstəqilliyinin təhlükədə olduğu zaman xalqa bələdçilik edərək ölkədə yaranan xaosu ağlının, zəkasının qüdrəti ilə aradan qaldıran Ulu Öndər ən təcrübəli dövlət başçılarının, sərkərdələrin belə bacara bilməyəcəyi məsuliyyətli, çətin vəzifənin öhdəsindən gəldi, Azərbaycanı parçalanmaq təhlükəsindən xilas etdi:



- AXC-Müsavat iqtidarının yarıtmaz, xəyanətkar hakimiyyəti nəticəsində dağılmaqda, parçalanmaqda olan ölkəmizin xilası, qurtuluşa aparan yolun bir açıqlaması var. Əgər o zaman müdrik siyasətçi Heydər Əliyev hakimiyyətə qayıtmasaydı bu gün adını iftixarla çəkdiyimiz, vətəndaşı olduğumuz üçün qürur duyduğumuz Azərbaycan adlı məmləkətin varlığından söhbət gedə bilməzdi. Xalqın tələbi ilə Bakıya qayıdan Heydər Əliyevin qətiyyəti, cəsarəti, təcrübəsi, düşünülmüş siyasəti nəticəsində Azərbaycan ağır vəziyyətdən çıxa bildi, sabitlik yarandı və inkişaf dövrü başlandı.

**Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov** Ulu Öndəri tarixdə izi qalan görkəmli sərkərdələrlə müqayisə edərək bildirdi ki, liderləri yaşadan, tarixi şəxsiyyət kimi sevdirən, qəhrəmanlığın ilk şərti olan cəsarətlilik, siyasi iradə, Vətənə məhəbbət duyğularıdır:

- 2018-ci il tariximizə yubileylər ili kimi yazılır. Bu ildə ulu öndər Heydər Əliyevin, dünya şöhrətli oftalmoloq, akademik Zərifə xanım Əliyevanın 95 illik yubileyləri, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi təntənə ilə qeyd olundu. Bu tədbirlərin davamı isə 15 İyun - Milli Qurtuluş Günüdür. Xalqa xidmətlərinə görə sərkərdə, fateh adını qazanan tarixi şəxsiyyətlər müxtəlif dövrlərdə yaşasalar da, onların liderlik keyfiyyətlərini əsaslandıran cəsarət, qətiyyət, iradə, torpağına, elinə, obasına bağlılıq olmuşudr. Xalqı üçün böyük xidmətlər göstərən sərkərdələr arasında ulu öndər Heydər Əliyevin adı birincilər sırasında çəkilir. Ucsuz-bucaqsız torpaqlar üzərində hökmranlıq etmiş Makedoniyalı İskəndəri "böyük" edən bütün uğurlarını 10 ilə sığdırması olub. Corc Vaşinqton ABŞ-ın müstəqilliyini təmin edib. Fateh Sultan Mehmet İstanbulun fəthini reallaşdırıb. Çingiz xan bir çox qəbilələri birləşdirərək Avropaya qədər uzanan bir imperiya qurub. Alp Arslanın ən böyük xidməti "Turan taktikası"nı müvəffəqiyyətlə icra edərək sayca üstün ordulara qarşı zəfər qazanmasıdır. Yuli Sezar Romanı imperatorluğa çevirib. Hannibal dövrünün ən böyük ordularından birinə sahib olub. Mustafa Kamal Atatürk bugünkü qüdrətli Türkiyəni yaradıb. Adı tarixi şəxsiyyətlərlə eyni sırada çəkilən, uzaqgörən siyasəti, dövlətçilik təcrübəsi, müdrikliyi ilə dünyada tanınmış liderlər arasında ilk sıralarda yer alan ümummilli lider Heydər Əliyev insanı formalaşdıran təşəbbüskarlıq, liderlik, özünəinam formulunu "müvəffqiyyət qanununa" çevirərək müstəqil Azərbaycanın xilaskarı kimi Ümummilli Lider adının dahilik zirvəsinə ucalıb. Sözünə sadiqlik və özünə inam isə qələbənin başlanğıcıdır. Bu gün bir daha deyirik ki, nə yaxşı ki, Azərbaycan xalqının Heydər Əliyev kimi ümummilli lideri olub və zamanında xalqın səsinə səs verməklə milyonları məşəqqətlərdən xilas etdi. AXC-Müsavat iqtidarının yarıtmaz siyasəti nəticəsində ölkədə yaranan xaos, vətəndaş müharibəsinə aparan qiyamın qarşısı onun müdrik qətiyyəti ilə alındı. Azərbaycan sabit ölkə kimi inkişaf yoluna qədəm qoydu. Prezident İlham Əliyevin davam etdirdiyi varislik siyasəti isə Azərbaycanı dünyanın ən qüdrəti ölkələri sırasına qaldırdı.







**YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə** Ulu Öndərin siyasi fəaliyyətini hadisələrin xronoloji təhlili ilə diqqətə çatdırdı. Bildirdi ki, müstəqilliyimizin təhlükədə olduğu məqamlar çox olsa da 4 iyun Gəncə hadisələri ilə bağlı ölkədə davam edən proseslər daha mürəkkəb xarakteri ilə seçilir:

- Bu günlərdə bütün Azərbaycan xalqı dövlətçilik salnaməmizin ən uca zirvəsində dayanan tarixi hadisəni- Milli Qurtuluş Gününü böyük sevinclə qeyd edir. 1993-cü il siyasi hadisələrin mürəkkəbliyi ilə seçilir. O dövrdə Azərbaycanda mövcud olan hakimiyyətsizlik, müxtəlif siyasi qruplar arasında yaranan gərginlik, şəxsi maraqarın dövlətçilik mənafelərindən üstün tutulması ölkədə itaətsizlik mühiti yaratmışdı. Müstəqillik Aktı qəbul olunsa da ölkədə baş alıb gedən hərc-mərclik, hakimiyyətsizlik, iqtisadi tənəzzül insanların sabaha inamını azaldırdı. Bu gün hər bir Azərbaycan vətəndaşı keçmişə nəzər salaraq sual edir: O qarışıq dövrdə ulu öndər Heydər Əliyev hakimiyyətə qayıtmasaydı Azərbaycanın taleyi necə olardı? Ermənistanın torpaqlarımıza əsassız iddiası insanlarda təlaş yaratmışdı. Elan olunmamış müharibədən əziyyət çəkən ölkə vətəndaşlarının vəziyyəti acınacaqlı idi. Dövlətçilik adında heç nəyin olmadığı ölkədə dövlət strukturlarının fəaliyyətindən söhbət gedə bilməzdi. İyun ayının 9-da xalqın tələbi ilə Bakıya gələn, Gəncə qiyamını müdrikliyi ilə aradan qaldıran ulu öndər Heydər Əliyev xilaskarlıq adını əbədiləşdirdi, ölkədə sabitlik yaratdı. Ona görə də tam mənası ilə demək olar ki, Milli Qurtuluş Günü hər bir Azərbaycan vətəndaşının həyatında əlamətdar hadisədir.



AXC-Müsavat iqtidarı dövründə ölkədə yaranan xaosu səriştəsiz rəhbərlərin yarıtmaz fəaliyyəti adlandıran Vüqar Rəhimzadə bildirdi ki, o dövrdə daxili və xarici qüvvələrin təsirinə baxmayaraq müdrik siyasəti ilə müstəqilliyimizin qarantı olan Ulu Öndər xalqımıza bələdçilik etdi:

-Bu bir həqiqətdir ki, siyasi sabitliyi bərqərar olmayan ölkədə inkişafdan, iqtisadi tərəqqidən söhbət gedə bilməz. Məqsəd, hədəf bu idi ki, müstəqil Azərbaycanın gələcək inkişaf yolu xalqın istəyinə uyğun müəyyənləşdirilməli, dövlətçilik mənafeləri bir amala yönəlməlidir. O çətin dövrdə məhz Ulu Öndərin siyasi qətiyyəti nəticəsində imzalanan "Əsrin müqaviləsi" ilə Azərbaycana maraq yarandı, ölkəmizin dünyada tanınması istiqamətində önəmli addımlar atıldı. İqtisadi inkişafı, iqtisadi müstəqilliyi şərtləndirən sabitlik yarandı, ordu quruculuğu istiqamətində islahatlar aparıldı.

Azərbaycanın qarşılıqlı əməkdaşlığa əsaslanan xarici siyasətinin istiqamətləri müəyyənləşdirildi. Ən əsası isə vətəndaşlarda milli təfəkkür , azərbaycançılıq ideyaları formalaşdırıldı. Bu baxımdan tam inamla demək olar ki, 15 iyun bütün dünya azərbaycanlılarının bayramıdır. İnkişaf tariximizdə önəmi ilə seçilən, siyasi çaxnaşmalar şəraitində, Ulu Öndərin şəxsi nüfuzu sayəsində imzalanan "Əsrin müqaviləsi"nə marağın artması, ötən il bu müqavilənin 2050-ci llədək uzadılması, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi, açılışını keçirdiyimiz Cənub Qaz Dəhlizi, bir neçə gündən sonra enerji diplomatiyamızın daha bir uğur kimi tarixə düşəcək TANAP layihəsinin gerçəkləşməsi Ulu Öndərin düşünülmüş siyasətinin məntiqi nəticəsi, bu siyasətə sadiq qalan Prezident İlham Əliyevin siyasi iradəsinin təntənəsidir.

"Belə bir ifadə artıq hər bir Azərbaycan vətəndaşının yaddaşında əbədilik yer alıb: "Nə qədər ki, müstəqil Azərbaycan dövlət var, Azərbaycan xalqı var, Heydər Əliyev ürəklərdə yaşayacaq" söyləyən Vüqar Rəhimzadə bildirdi ki, Azərbaycan xalqının qəlbində Ulu Öndərin tək doğum tarixi var. Azərbaycan xalqının xilaskarı adını xidmətləri, əməlləri ilə qazanan Ulu Öndər əbədiyaşarlıq qazanmışdır:

- Prezident İlham Əliyevin davam etdirdiyi siyasətin bir məqsədi, hədəfi var: Dünyada özünü doğruldan ən yaxşı layihələr Azərbaycanda gerçəkləşməlidir. Azərbaycanlılar ən yaxşı yaşayan vətəndaşlardan olmalıdırlar. Tolerantlığı, multikultural dəyərləri əsrlərlə yaşadan ölkəmizin bu gün dünyada heyrət doğuran inkişafı, tutduğu mövqe Ulu Öndərin arzusunda olduğu istəklərin gerçəkləşməsidir.

**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İctimai- siyasi məsələlər şöbəsinin xarici ölkələrdə yaşayan azərbaycanlılarla iş üzrə sektor müdiri, YAP Siyasi Şurasının üzvü Qafar Əliyev** çıxışında Milli Qurtuluş Gününü müstəqilliyimizi şərtləndirən tarixi hadisə adlandırdı:

- Ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətindən danışmaq üçün vaxt azlıq edər. O elə bir nadir şəxsiyyətdir ki, Azərbaycan xalqı belə bir lideri olduğu üçün qürur duyur. Xalq öz lideri ilə fəxr etdiyi üçün liderlər də xalqı naminə böyük xidmətlərə imza atır. Dahi şəxsiyyət Heydər Əliyev kimi. Ulu Öndər bənzərsizliyini əməli ilə təsdiq etdi. SSRİ dövründə onunla birlikdə yüksək vəzifə tutanların heç biri onun qədər xalqının qəlbində yaşamır . Xilaskarımızın böyüklüyü onda idi ki, o sovetlər sistemində olduğu zaman belə öz sözünü qətiyyətlə, əməlləri ilə demək qabiliyyətinə, bacarığına qadir idi. Sovet ideologiyasının hakim olduğu zamanlarda belə Azərbaycanın müstəqilliyinə inanır, bu məqsədə çatmaq naminə ilkin addımlarını atırdı. O, yeni siyasi sistemdə də öz ideyasına sadiqliyini əməli ilə bildirdi. Bu baxımdan deyə bilərik ki, Azərbaycanın dövlətçilik salnaməsində xüsusi yeri olan 15 iyun həm də xalqımızın xilaskarlıq missiyasının başlanğıc tarixidir. Azərbaycanın dövlətçilik tarixinə adı yazılan görkəmli şəxsiyyətlər çox olsa da, onların arasında liderlik fəlsəfəsi ilə seçilən ulu öndər Heydər Əliyevin irsi daim öyrənilməli, təbliğ olunmalıdır. Ulu Öndərin əsas prinsipi Azərbaycanı daha qüdrətli görmək idi və Prezident İlham Əliyev varis kimi bu siyasətə sadiq qalaraq Ümummilli Liderin əməllərini yaşadır, inkişaf konsepsiyasını davam etdirir.

"Heydər Əliyevin ideyaları yaşayır və qalib gəlir. Dahi Liderin vətəndaş həmrəyliyi, milli birlik, multikultural və tolerantlıq ideyalarını layiqincə davam etdirən Prezident İlham Əliyev ökəmizdə sabitliyin qaranti kimi həmkarları arasında da böyük nufuz qazanmızdır" söyləyən Qafar Əliyev vurğuladı ki, əsas vəzifəmiz bu dahinin siyasi məktəbini gənclərə də öyrətmək, dövlətçilik prinsiplərinə sadiqlik ruhunu gücləndirməkdir.

Tədbirdə YAP Yasamal rayon təşkilatının həyata keçirdiyi tədbirlərdə yaxından iştirak edən fəallara fəxri fərmanlar təqdim olundu. Bayram tədbiri bədii hissə ilə davam etdirildi.

**Xuraman İsmayılqızı,**
**Şəmsiyyə Əliqızı,**
**Cavid Əkbərov**
***"İki sahil"***